**AZƏRBAYCAN RESPUBLİKASI**
**NAXÇIVAN MUXTAR RESPUBLİKASI**
**NAZİRLƏR KABİNETİ**

# Q Ə R A R

**Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin “Naxçıvan Muxtar Respublikasında inzibati orqanların Təsnifatı”nın təsdiq edilməsi haqqında” 2007-ci il 5 sentyabr tarixli 69 nömrəli, “Naxçıvan Muxtar Respublikasında dövlət büdcəsindən maliyyələşən idarə, müəssisə və təşkilatlarda nəqliyyat vasitələrindən istifadə qaydalarının təkmilləşdirilməsi haqqında” 2011-ci il 25 avqust tarixli 82 nömrəli, “Mərkəzi icra hakimiyyəti orqanları tərəfindən konkret sahələr üzrə elektron xidmətlər göstərilməsi Qaydaları”nın və “Elektron xidmət növlərinin Siyahısı”nın təsdiq edilməsi haqqında” 2011-ci il 8 dekabr tarixli 103 nömrəli, “Naxçıvan Muxtar Respublikasında qida məhsulları sahəsində fəaliyyət göstərən subyektlərin qida təhlükəsizliyi qeydiyyatına alınması və dövlət reyestrinin aparılması Qaydaları”nın təsdiq edilməsi haqqında” 2020-ci il 2 sentyabr tarixli 157 nömrəli qərarlarında dəyişiklik edilməsi və “Dövlət Taxıl Fondunun saxlanması və istifadəsi Qaydaları”nın təsdiq edilməsi haqqında” 2009-cu il 15 iyul tarixli 54 nömrəli, “Taxıl məhsullarının keyfiyyətinə və təhlükəsizliyinə dövlət nəzarətinin həyata keçirilməsi qaydaları haqqında Əsasnamə”nin təsdiq edilməsi barədə Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2009-cu il 10 sentyabr tarixli 136 nömrəli qərarı haqqında” 2009-cu il 18 sentyabr tarixli 66 nömrəli, “Naxçıvan Muxtar Respublikasında yeyinti məhsullarına verilən qida təhlükəsizliyi sertifikatının forması və verilmə Qaydaları”nın təsdiq edilməsi haqqında” 2020-ci il 2 sentyabr tarixli 156 nömrəli və “Naxçıvan Muxtar Respublikasının Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidməti tərəfindən təsərrüfat subyektlərində yoxlamaların aparılması Qaydaları”nın təsdiq edilməsi haqqında” 2021-ci il 12 mart tarixli 59 nömrəli qərarlarının ləğv edilməsi barədə**

“Naxçıvan Muxtar Respublikasının Qida Təhlükəsizliyi Agentliyinin fəaliyyətinin təmin edilməsi haqqında” Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin 2023-cü il 03 noyabr tarixli 210-VI FR nömrəli Fərmanının 3.2-ci bəndinin icrasını təmin etmək məqsədilə Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 2007-ci il 5 sentyabr tarixli 69 nömrəli Qərarı ilə təsdiq edilmiş “Naxçıvan Muxtar Respublikasında inzibati orqanların Təsnifatı”nın II bölməsinə aşağıdakı məzmunda 26-1-ci hissə əlavə edilsin:

| | |
|---|---|
| 26-1. | Naxçıvan Muxtar Respublikasının Qida Təhlükəsizliyi Agentliyi: |
| 26-1.1. | Naxçıvan Muxtar Respublikası Qida Təhlükəsizliyi Agentliyinin: |
| 26-1.1.1. | regional bölmələri |

2. Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 2011-ci il 25 avqust tarixli 82 nömrəli Qərarı ilə təsdiq edilmiş “Naxçıvan Muxtar Respublikasının mərkəzi icra hakimiyyəti və məhkəmə orqanlarının aparatları (hərbi qurumlar, hüquq mühafizə və prokurorluq orqanları, rayon (şəhər) məhkəmələri istisna olmaqla), mərkəzi icra hakimiyyəti orqanlarının yerli bölmələri, onların yanında, tabeliyində olan orqanlar, mərkəzi icra hakimiyyəti orqanlarının yanında yaradılan dövlət agentliklərinin, dövlət xidmətlərinin aparatları və onların yerli bölmələri üçün xidməti minik avtomobillərinin say həddi (limiti)” cədvəlində aşağıdakı dəyişikliklər edilsin:

2.1. aşağıdakı məzmunda 18-1-ci hissə əlavə edilsin:

| | | | | | |
|---|---|---|---|---|---|
| 18-1. | Naxçıvan Muxtar Respublikasının Qida Təhlükəsizliyi Agentliyi | 2 | | | |

2.2. “Cəmi” hissəsi ləğv edilsin.

3. Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 2011-ci il 8 dekabr tarixli 103 nömrəli Qərarı ilə təsdiq edilmiş 2 nömrəli əlavə - “Elektron xidmət növlərinin Siyahısı”na aşağıdakı məzmunda 36-cı hissə əlavə edilsin:

| **“36. Naxçıvan Muxtar Respublikasının Qida Təhlükəsizliyi Agentliyi** | |
|---|---|
| 36.1. | İdxal və ixrac edilən qida məhsullarına (idxal sağlamlıq aktı, sağlamlıq, baytarlıq və fitosanitar sertifikatlarının) verilməsi üçün müraciətin və sənədlərin qəbulu |
| 36.2. | Qida məhsulları sahəsində fəaliyyət göstərən subyektlərin qida təhlükəsizliyi qeydiyyatına alınması üçün müraciətin və sənədlərin qəbulu” |

4. Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 2020-ci il 2 sentyabr tarixli 157 nömrəli Qərarı ilə təsdiq edilmiş “Naxçıvan Muxtar Respublikasında qida məhsulları sahəsində fəaliyyət göstərən subyektlərin qida təhlükəsizliyi qeydiyyatına alınması və dövlət reyestrinin aparılması Qaydaları”nda aşağıdakı dəyişikliklər edilsin:

4.1. 2.1-ci bənddə “Naxçıvan Muxtar Respublikası Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidməti (bundan sonra – Xidmət)” sözləri “Naxçıvan Muxtar Respublikasının Qida Təhlükəsizliyi Agentliyi (bundan sonra – Agentlik)” sözləri ilə əvəz edilsin;

4.2. 2.2-ci, 3.1-ci, 3.10-cu və 3.12-ci bəndlərdə, 2.3-cü, 2.6-cı, 2.9-cu, 2.12-ci bəndlərin birinci cümləsində, 2.8-ci bəndin birinci və üçüncü cümlələrində, 2.13-cü və 3.9-cu bəndlərin birinci və ikinci cümlələrində, 3.2-ci bəndin ikinci cümləsində, 3.5.10-cu yarımbənddə ismin müvafiq hallarında “Xidmət” sözü ismin müvafiq hallarında “Agentlik” sözü ilə əvəz edilsin;

4.3. həmin Qaydalara 2 nömrəli əlavənin mətnində ismin müvafiq hallarında “Naxçıvan Muxtar Respublikası Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidməti” sözləri ismin müvafiq hallarında “Naxçıvan Muxtar Respublikası Qida Təhlükəsizliyi Agentliyi ” sözləri ilə əvəz edilsin.

5. Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin “Dövlət Taxıl Fondunun saxlanması və istifadəsi Qaydaları”nın təsdiq edilməsi haqqında” 2009-cu il 15 iyul tarixli 54 nömrəli, “Taxıl məhsullarının keyfiyyətinə və təhlükəsizliyinə dövlət nəzarətinin həyata keçirilməsi qaydaları haqqında Əsasnamə”nin təsdiq edilməsi barədə Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2009-cu il 10 sentyabr tarixli 136 nömrəli qərarı haqqında” 2009-cu il 18 sentyabr tarixli 66 nömrəli, “Naxçıvan Muxtar Respublikasında yeyinti məhsullarına verilən qida təhlükəsizliyi sertifikatının forması və verilmə Qaydaları”nın təsdiq edilməsi haqqında” 2020-ci il 2 sentyabr tarixli 156 nömrəli və “Naxçıvan Muxtar Respublikasının Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidməti tərəfindən təsərrüfat subyektlərində yoxlamaların aparılması Qaydaları”nın təsdiq edilməsi haqqında” 2021-ci il 12 mart tarixli 59 nömrəli qərarları ləğv edilsin.

6. Bu Qərar imzalandığı gündən qüvvəyə minir.

**Naxçıvan Muxtar Respublikasının**
**Baş naziri** **Səbuhi Məmmədov**

Naxçıvan şəhəri, “5” fevral 2024-cü il

№ 6